**İmruz ƏFƏNDİYEVA**
Ü.Hacıbəyli adina BMA-sının professoru,
Sənətşünaslıq doktoru,
Əməkdar incəsənət xadimi
Ünvan: Bakı ş. Şəmsi Bədəlbəyli 98.

DOI: 10.62440/AMK2024-4.s.87-93

# DAİM AXTARIŞ YOLLARINDA OLAN TANINMIŞ BƏSTƏKARIMIZ MƏMMƏDAĞA UMUDOV HAQQINDA

*"Eşq olsun, söz düzən böyük şairlər,*
*Kiçik bir arpadan yaradır gövhər"*
***Nizami Gəncəvi***

***Xülasə:*** *Məqalədə görkəmli bəstəkar, Azərbaycan Milli Konservatoriyasının müəllimi, professor Məmmədağa Umudovun həyat və yaradıcılığından söz açılaraq onun sənətkar bir portreti təsvir olunur. Burada həmçinin Məmmədağa Umudovun 75 illiyinə həsr olunmuş Azərbaycan Bəstəkarlar İttifaqında keçirilən Yubiley tədbirindən bəhs edilir.*
***Açar sözlər:*** *Məmmədağa Umudov, Azərbaycan Bəstəkarlar İttifaqı, novatorluq, "Cümhuriyyət marşı", "Azərbaycan musiqişünaslıq məktəbi", yubiley, muğam, müəllim*

İstedadlı bəstəkarımız Məmmədağa Umudov yuxarıda qeyd edilən epitetə həqiqətən də layiq bir sənətkardır. Çünki o, kiçik bir motiv (və yaxud fraza) üzərində qurulan xalq nümunəsini zərgər kimi işləyərək gözəl kompozisiya yaratmağı mükəmməl bacarır. Sanki onun yaradıcılığına xas hər bir musiqi motivi təkrarsız gövhərlər (yəni musiqi cümlələri) yaradan "arpa dənəciyinə" bənzəyir.

Bu gün fəxredici haldır ki, görkəmli alimlər arasında "Azərbaycan musiqişünaslıq məktəbi" sözü işlədilir. Bu məxsusi məfhumun əsası məhz Üzeyir Hacıbəyli tərəfindən qoyulmuşdur. Təsadüfü deyil ki, Ü.Hacıbəyli ilk kəskin tənqidi məqaləsini (bizim fikrimizcə) 1924-cü ildən başlayıb yazmağa. 3 oktyabr 1924-cü il tarixində yazıçı, publisist, görkəmli pedaqoq və Bakı Dövlət Universitetinin ilk azərbaycanlı rektoru Tağı Şahbazi "Kommunist" qəzetində "Türk operaları haqqında" məqaləsində Üzeyir Hacıbəyliyə aid fikirlər irəli sürərək belə qeyd edir: *"...indiki zamanda yaranan opera və musiqi komediyalarda musiqi və bədii keyfiyyətlər çatışmır"* [7].

Ü.Hacıbəyli həmin qəzetdə T.Şahbaziyə cavab olaraq öz məqaləsi Azərbaycan musiqisinin professionallığından, dinamikasından, bəstəkarlarımızın əldə etdiyi nailiyyətlərdən bəhs edir. Üzeyir Hacıbəyli ilk dəfə məhz bu məqalə (bizim fikrimizcə) vasitəsi ilə tənqidi problemlərin müzakirəsinin əsasını qoyur [3, s. 373]. Xurşud Ağayeva, M.S.İsmayılov, Ə.Eldarova, E.Nikomarova, Q.Qasımov, L.Karagiçeva, B.Yermolayev, E.Abasova və. s. başqa gözəl alimlər, pedaqoqlar Üzeyir Hacıbəyli ənənələrini davam etdirərək bizim müəllimlərimizdən olublar.

Bu gün fəxr edirik – bizim akademik Zemfira Səfərova, AMEA-nın müxbir üzvləri – Firəngiz Əlizadə, Rəna Məmmədova-Sarabskaya kimi musiqişünaslarımı var. Hətta bəstəkar F.Əlizadənin yeni çapdan çıxan “Azərbaycanın simfonik musiqisi” adlı kitabı bizə onun nəyinki dünya şöhrətli bəstəkar, həmçinin görkəmli musiqişünas-alim kimi də təqdim etməyə imkan yaradır [2]. Bu baxımdan həm bəstəkar, həm də bir musiqişünas kimi musiqi tarixində iz buraxan bəstəkarlarımız xüsusilə diqqətə layiqdirlər. Onlardan biri də professor, gözəl pedaqoq, xalqımızın sevgisini qazanaraq musiqi sənətimizə yenilik gətirən musiqişünas-bəstəkar Məmmədağa Umudovdur.



***Məmmədağa Umudovun Üzeyir Hacıbəylinin Şuşadakı evindən xatirə fotosu***

Bu yaxınlarda gənc musiqişünas Jalə Qulamovanın bəstəkar Məmmədağa Umudovun 75 illik yubileyi münasibətilə onun haqqında yazdığı kitab diqqətimi cəlb etmişdir. Hesab edirəm ki, Jalə Qulamova bizim musiqişünaslıq məktəbinin, şərti olaraq, üçüncü nəslinin istedadlı nümayəndəsidir. O, tanınan bəstəkarımız haqqında gözəl, oxucuları cəlb etməyə qadir bir kitab yazıb [5]. M.Umudovun ilk müəllimi Sabir Ramazanov olmuşdur. Məhz Sabir müəllim Əmircanın Mədəniyyət sarayında tar alətindən gələcəyin bəstəkarı M.Umudova dərs demişdi. O öz tələbələrinə xalq incilərindən - xalq mahnılarını, təsnifləri, muğamları öyrədirdi. Bu haqda J.Qulamovanın kitabında qeyd edilir: *"1964. Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi məktəbinə (indiki Musiqi Kolleci) qəbul olan Məmmədağa burada tar ifaçılığı sənətinin dərinliklərinə ixtisas müəllimi Akif Novruzovun, eləcədə muğam müəllimi Kamil Əhmədovun sayəsində yiyələnir. Hər iki müəllim tar ifaçılığı üzrə o dövrün ən peşəkar müəllimlərindən hesab olunurdu"* [5, s. 4].

Bəstəkar Məmmədağa Umudov 1968-ci ildə Musiqi texnikumunu bitirir. Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olur, tar ixtisası üzrə təhsilini davam etdirir. 1973-cü ildə həmin Sənət ocağının bəstəkarlıq fakültəsinin II kursuna daxil olur. Beləliklə, gənc M.Umudov böyük və tanınmış bəstəkarımız, xalq artisti , professor Cövdət Hacıyevin sinfində təhsil alaraq öz arzusuna çatır. 1973-cü ildə yazılan əsərlərə diqqət etdikdə bəstəkarın prelüdlərində, marş və sonatinalarında səmimiyyət və xalq musiqisinin janrlarına xüsusi məhəbbət hiss olunur.

M.Umudovun əsərlərinin sırasında simli alətlər üçün yazılmış "Düşüncələr" adlı simfoniyası xüsusilə maraqlıdır. Onun bu əsəri olduqca yumşaq, sakit, ifadəlidir, xalq musiqimizlə sıx bağlılığını nümayiş etdirir. Hesab edirik ki, bu əsərin musiqi dramaturgiyasında mahnıvarilik bir inkişaf prinsipi kimi böyük rol oynayır.

Mehriban Əhmədovanın Məmmədağa Umudova haqqında fikirləri xüsusilə diqqətəlayiqdir: *"Məmmədağa Umudova – tanınmış professor, bəstəkar, Əməkdar incəsənət xadimi, xalq tərəfindən sevilən və böyük hörmət qazanan şəxsiyyətdir. Onun "Cümhuriyyət marşı" (söz. V.Əhməd) olduqca möhtəşəm əsərdir. Mən bu əsəri tələbələrimlə birlikdə hər zaman qulaq asıram. Biz hətta onun "Alətşünaslıq" kitabını, "Aşıq musiqisi və muğam" elmi məqaləsi əsasında seminar keçirmişik. Mən professor Məmmədağa Umudovu yubiley münasibətilə ürəkdən təbrik edirəm"* [8].

Düşünürük ki, M.Umudovun yaradıcılığında ənənə problemini ön plana çıxarmaq olar. Ənənənin bütün növlərinin təsnifatını alim-musiqişünas Şəhla Həsənova təcəssüm etmişdir. O, bu barədə belə qeyd edir: *"Daim yaşayan və əsrlər boyu əhəmiyyətini itirməyən bir amil olmuşdur. Bu ənənə adlandırdığımız unikal fenomendir. Ənənə problemi sənətşünaslığın əbədi mövzularından biri kimi həmişə elmin diqqət mərkəzində olmuşdur. "Ənənə və novatorluq", "Ənənə və varislik", "Ənənə və müasirlik", "Ənənə və kanon", "Ənənə və stereotip" kimi irəli sürülən problemlər daim müzakirə obyekti olmuş, incəsənətin ən müxtəlif*

*məsələlərinin ayırd edilməsinə həsr olunmuş diskussiyalarda da istər – istəməz bu problemə toxunulmuşdur. Bu, təsadüfü deyildir. Ənənə hər bir xalqın mədəniyyəti və incəsənətinin inkişafı üçün çıxış nöqtəsi və mənbə rolunu oynayan alimdir”* [4, s. 3-4].

Düşünürük ki, Şəhla Həsənovanın ənənə haqqında dediyi sözlər, daha doğrusu onun təsnifatını M.Umudovun musiqi sənətimizə gətirdiyi yenilikləri ilə əlaqələndirmək olar. Bu baxımdan “Ənənə və varislik”, “Ənənə və novatorluq” kimi estetik kateqoriyalar M.Umudova tam xarakterikdir.



***Məmmədağa Umudov və İmruz Əfəndiyeva.***
***Bakı Musiqi Akademiyasında yaradıcı söhbət***

İlk növbədə M.Umudov öz müəllimi Cövdət Hacıyevin musiqisinə səciyyəvi olan epik-nəqledici və muğamdan irəli gələn improvizasion üsulu birləşdirərək, daha doğrusu uyğunlaşdıraraq öz dəsti-xəttini yaradır. Hesab edirik ki, M.Umudovun yaradıcılığına F.Əmirovun yüksək ifadəli emosional lirikası, C.Ca-

hangirovun oratoriyalarının romantik pafosu müəyyən qədər təsir edərək sanki onun yaddaşına həkk olunub.

M.Umudov həmçinin mənim də tələbəm olub, indi isə o, mənim həmsöhbət və həmfikir həmkarımdır. Mən sevinirəm ki, mənim həmkarım elmi-tədqiqat işlərinə, bəstəkarlıq yaradıcılığında uğurlarına görə professorluq, Əməkdar incəsənət xadimi kimi yüksək adlara layiq görülüb. O, bir neçə kitablarını mənə bağışlayıb. M.Umudov "Alətşünaslıq"(Az. Xalq çalğı alətləri orkestrinin tərkibinə daxil olan alətlər üzrə), "Alətşünaslıq" (simfonik orkestr alətləri üzrə) dərsliklərinin və "Tövsiyələr", "Simfonik orkestr alətləri və orkestr" fənnindən magistr dərəcəsi alan tələbələr üçün yazdığı proqramın, metodik vəsaitlərin müəllifidir.

Biz M.Umudovun 75 illiyinə həsr olunmuş Azərbaycan Bəstəkarlar İttifaqında keçirilən Yubiley tədbirindən söhbət açmaq istərdik. Bu tədbir 27 may 2024-cü ildə keçirilmişdir. Azərbaycan Bəstəkarlar İttifaqının sədri AMEA-nın müxbir üzvü, xalq artisti, professor Firəngiz Əlizadə geniş mənalı, gözəl çıxışında M.Umudovun keçdiyi şərəfli, yaradıcılıq yolunun əsas mərhələlərini vurğuladı. Sonra isə sənətşünaslıq üzrə fəlsəfə doktorları Jalə Qulamova, Akif Quliyev və Səadət Təhmirazqızı öz peşəkar, elmi məruzələrində bəstəkarın yaradıcılıq portretini, pedaqoji fəaliyyətini və M.Umudovun yaradıcılığında vətənpərvərlik mövzusunun əhəmiyyətli rolu haqqında maraqlı, elmi-professional şəkildə çıxış etdilər.

Yubiley gecəsində ilk olaraq V.Əhmədin sözlərinə bəstələnmiş "Cümhuriyyət marşı" səsləndi. *(İfa edirdi: Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri Dirijor – bizim olduqca istedadlı gənc dirijorumuz Mustafa Mehmandarov, Azərbaycan Milli Konservatoriyasının tələbə xoru və bu kollektivin xormeysteri Əməkdar müəllim Təranə Yusifova).* Daha sonra olduqca ekspressiya hissləri ilə cəlb olunan lirik-psixoloji poema – "Kompozisiya" (violin və fortepiano) əsəri səslənir. Bu əsəri biz türk dostlarımızın ifasında (Cihat Aşkin (violin) və Can Okanın (fortepiano)) yüksək peşəkarlıqla eşitdik. Biz xüsusi qeyd etməliyik ki, Azərbaycan Bəstəkarlar İttifaqında səslənən əsərlər videoyazı şəklində təqdim olunmuşdur. Tədbirin sonunda M.Umudovun simfonik orkestr üçün yazılmış "Qarabağ Azərbaycandır!" adlı əsərinin videoyazısına qulaq asdıq.

Mənim üçün şəxsən M.Umumdovun bəstəkarlıq yaradıcılığına dair yazdığı əsərlərdən "Cahargah" muğam kompozisiyası xüsusilə cəlbedicidir. Bu əsər haqqında Jalə Qulamova öz kitabında qeyd edir: *"M.Umudovun "Cahargahı" muğam kompozisiyasinin vokal-instrumental forması və orkestr rəngarəngliyi ilə seçilir. Muğam ustadlarının tar, zurna və balabanın müşayiəti ilə solo ifası qiraətçinin Bəxtiyar Vahabzadənin "Muğam" poemasından söylədiyi nitqi ilə ahəng yaradır. Nəticədə auditoriya muğam aləminin canlı reallığı ilə qovuşur"* [5, s.9].

Ümumiyyətlə xüsusi sevdiyim əsərlər sırasında Tar və simfonik orkestr üçün "Konsert"i vurğulamalıyıq. Musiqi tariximizdə bu sahəyə gətirən yeni üslub axtarışları S.Rüstəmovun, H.Xanməmmədovun, C.Cahangirovun, S.Ələsgərovun, T.Bakixanovun və başqalarının adı ilə bağlıdır. Konsertin yaranması haqqında Jalə

Qulamova öz kitabında daha ətraflı məlumat vermişdir. Qeyd edək ki, M.Umudovun sevimli müəllimi Cövdət Hacıyevə 100 illik yubileyinə solo violin üçün yazdığı “Portret” əsəri də olduqca uğurludur. Bu əsər ölkəmizdə və xarici ölkələrdə dəfələrlə ifa olunmuşdur. Bəstəkarın yubileyi ilə əlaqədar 27 may 2024-cü il tarixində TRT-3 də geniş veriliş efirə gedib və tar ilə simfonik orkestr üçün yazdığı “Konsert” tarzən Sahib Paşazadənin ifasında səslənib. 4 oktyabr 2024-cü ildə isə Azərbaycan Dövlət Filarmoniyasında M.Umudovun 75 illik yubileyi ilə əlaqədar daha bir yubiley konserti keçirilib. Bu konsertdə ilk dəfə tar ilə simfonik orkestr üçün “Dəstgah” (konsert №2) əsərinin premyerası olmuşdur (solist Sahib Paşazadə, dirijor Fuad İbrahimov). Ümumiyyətlə 2024-cü ildə ölkəmizin müxtəlif konsert salonlarında M.Umudov 4 müəllif konserti keçirmişdir.

M.Umudov daima axtarışda olan bir bəstəkar kimi hər zaman yeniliklərlə bizi sevindirir. O, həmçinin gözəl ailə başçısıdır. Bəstəkarın böyük qızı Ülkər Umudova şahmat üzrə beynəlxalq hakim adını FİDE tərəfindən layiq görülmüş ilk Azərbaycanlı xanımdır. Kiçik qızı Nərgiz isə beynəlxalq qrosmeysterdir. 2005-2015-ci illərdə Azərbaycan Milli yığma komandasının tərkibində ölkəmizin idman şərəfini olimpiada, dünya və Avropa çempionatlarında layiqincə qoruyub.

Dahi alman yazıçısı, rejissor, ictimai xadim Bertold Brextin sözləri ilə fikirlərimi tamamlamaq istərdim: *“Xalq üçün anlaşıqlı olmaq üçün qeyri-adi ifadə üsullarına əl atmaq, tanış mövqelərdən imtina etmək qətiyyən lazım deyil. (Чтобы быть понятым народом, вовсе не требуется избегать непривычных способов выражения и становиться на привычные позиции)”* [11]. Hesab edirəm ki, bu sözlər Məmmədağa Umudovda hər zaman yaraşır!!!

**ƏDƏBİYYAT:**


1. Əfəndiyeva İ.M. “Düşüncə”nin izi ilə / İ.Əfəndiyeva “Musiqi mədəniyyətimiz və müasirlik”. Seçilmiş məqalələr. Bakı.: Renessans - A, 2016, 253 s.
2. Əlizadə F.Ə. Azərbaycan simfonik musiqisi (Monodiyadan simfonik orkestrə). B.: Mütərcim, 2024, 192 s.
3. Hacıbəyli Ü.Ə. Seçilmiş əsərləri. Türk operaları haqqında. B.: Şərq-Qərb, s. 372-375
4. Həsənova Ş.H. XX əsr Azərbaycan musiqisi: Ənənə və müasirlik. Ön söz. Bakı.: Apastroff Publishing and Printing. 2011, 306 s.
5. Qulamova J.E. Məmmədağa Umudov. Bakı.: Renessans-A, 2021, 92 s.
6. Rəsulov R. K. Güzgü günü. Bakı: Çaşıoğlu, 2017, 181 s.
7. Şahbazi T.A. (Samit). Türk operaları haqqında. / “Kommunist” qəzeti, № 203, ay,1924, s.3.
8. Mehriban Əhmədova ilə müsahibə: 03.09. 2024
9. Энциклопедия Узеир Гаджибеков. - Баку: Азербайджан, 2003, 292 с.
10. Azərbaycan musiqişünaslığının layiqli davamçısı. URL:https://medeniyyet.az/page/news/73442/Azerbaycan-musiqisunasliginin-layiqli-davamcisi.html
11. Бертольд Брехт. Общие вопросы эстетики URL:https://www.lib.ru/INPROZ/BREHT/breht5_1_3.txt

**Имруз ЭФЕНДИЕВА**
Профессор БМА им. У. Гаджибейли,
доктор искусствоведения,
Заслуженный артист
Член Президиума Союза композиторов Азербайджана,

## КОМПОЗИТОР МАМАДАГА УМУДОВ: ВСЕГДА В ПОИСКАХ

***Аннотация:*** *В статье рассказывается о жизни и творчестве композитора, преподавателя Азербайджанской Национальной Консерватории, профессора Мамедаги Умудова, описывается его художественный портрет. Здесь же упоминается юбилейное мероприятие, посвященное 75-летию Мамедага Умудова, проведенное в Союзе композиторов Азербайджана.*
***Ключевые слова:*** *Мамедага Умудов, Союз композиторов Азербайджана, новация, «Марш Республики», «Азербайджанская школа музыкознания», юбилей, мугам, Педагог*

**Imruz EFENDIYEVA**
Professor of U. Hajibeyli Adina BMA,
Doctor of Art Studies, Honored artist
Member of the Presidium of the Union of Composers of Azerbaijan,
Class 3 Labor warrant

## COMPOSER MAMMADAGA UMUDOV: ALWAYS IN SEARCH

***Abstract:*** *The article talks about the life and creativity of the composer, teacher of the Azerbaijan National Conservatory, professor Mammadaga Umudov, and describes an artistic portrait of him. The anniversary event dedicated to the 75th anniversary of Mammadaga Umudov held at the Union of Composers of Azerbaijan is also mentioned here.*
***Keywords:*** *Mammadaga Umudov, Azerbaijan Composers' Union, innovation, "Republic March", "Azerbaijan School of Musicology", jubilee, mugham, teacher*